

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 154 (23.796)

25 avqust 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan həmişə BMT-nin fəal üzvü olmuş, təqribən on il bundan əvvəl beynəlxalq birliyin böyük dəstəyi ilə hətta Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Ölkə başçısı xatırladıb ki, 1993-cü ildə qəbul edilən Təhlükəsizlik Şurasının məşhur qətnamələrini Azərbaycan beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirdi. Qeyd olunub ki, Birləşmiş Millətlər Təşkilatı və qurumları ilə əsas məqsəd qarşılıqlı etimad göstərərək və tərəfdaş olaraq azad edilmiş torpaqların bərpa edilməsinə nail olmaqdır.

BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva gələn il Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinin qeyd ediləcəyini, növbəti beş il ərzində qarşıya çox böyük vəzifələr qoyulduğunu, gənclərin əmək bazarlarına aid bacarıqlarının formalaşdırılmasında, yaşıl iqtisadiyyatın qurulmasında və səhiyyə, sosial müdafiə, təhsil və ədliyyə sahələrində xidmət göstərən təsisatların imkanlarının gücləndirilməsində hökumətin təşəbbüslərinə dəstək vermək istəyini bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mişel Pitermansın etimadnaməsini qəbul edib.

Dövlət proqramı icra olunur

## Meyvəçiliyin və tərəvəzçiliyin inkişafına lazımi şərait yaradılıb

***Kənd təsərrüfatı Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi həyatın aparıcı sahələrindən biri hesab olunur. Çünki muxtar respublikada mövcud olan əlverişli təbii şərait, əhalinin çoxəsrlik təcrübəsi, bu sahəyə marağın olması və göstərilən dövlət dəstəyi aqrar sektorun inkişafına ciddi təkan verir.***

Naxçıvanda kənd təsərrüfatının geniş yayılmış istiqamətlərindən birini meyvəçilik və tərəvəzçilik təşkil edir. Bu sahəyə kompleks yanaşmanı ehtiva edən tədbirlərin sayı ildən-ilə artır və əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi daim diqqətdə saxlanılır. Görülən işlərin səmərəliliyini artıran faktorlardan biri də meyvəçilik və tərəvəzçilik sahəsində qəbul olunan Dövlət proqramlarıdır. Bu istiqamətdə 2012-2015 və 2016-2020-ci illərdə həyata keçirilən və icrası başa çatan Dövlət proqramları muxtar respublikada 2 min 917 hektar sahədə meyvə bağlarının salınması, eləcə də tərəvəz əkini sahələrinin genişləndirilməsi ilə nəticələnmişdir. Bu müsbət nəticələrin davamlılığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" təsdiq olunmuşdur.

Proqramın icrası istiqamətində ikinci rübdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 17,5 hektar sahədə yeni meyvə bağları salınmış, 4 hektar sahədə bərpa işləri aparılmış, 72 hektar sahədə toxumla əkin həyata keçirilmiş, 1 hektar sahədə toxmacarlıq yaradılmışdır. Əkin-bərpa tədbirlərində 14 min 783 meyvə tingindən, 43 üzüm kolundan və 720 kiloqram meyvə toxumundan istifadə olunmuşdur.

Muxtar respublikada meyvə-tərəvəz məhsullarının istehsalına göstərilən dövlət maliyyə dəstəyi ərzaq təhlükəsizliyinin təmin olunması baxımından əvəzolunmaz rola malikdir. Həmçinin müxtəlif səmərəli layihələrin hazırlanması və təqdimatının keçirilməsi bu sahədə mühüm təşviqedici xarakter daşıyır. İkinci rübdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən meyvə-tərəvəz istehsalı ilə məşğul olan ailə təsərrüfatlarına 3 layihə üzrə 66 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu dövrdə dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində bağçılıq, Şərur rayonunda tingçilik təsərrüfatının yaradılması, Babək rayonunda üzümçülük təsərrüfatının fəaliyyətinin stimullaşdırılması başa çatdırılmışdır. Eyni zamanda Şərur və Ordubad rayonlarının hər birində 1 bağçılıq təsərrüfatının yaradılması istiqamətində işlər davam etdirilmişdir. Mayın 6-da Şahbuz rayonunun Ağbulaq kəndində ailə təsərrüfatları ilə təşkil olunan görüşdə meyvə lavaşası istehsalı üzrə layihənin təqdimatı keçirilmişdir. İkinci rübdə kartof əkini ilə məşğul olan təsərrüfatçıların 391 ton toxumluq kartofu idxal rüsumu ödəmədən muxtar respublikaya gətirmələrinə köməklik göstərilmişdir ki, bu da onların dövlət qayğısı ilə əhatə olunmasının daha bir ifadəsidir.



Proqramda nəzərdə tutulan tapşırıqlardan biri də istehsalçıların öz məhsullarını birbaşa istehlakçılara çatdırması məqsədilə yarmarkaların təşkilinin davam etdirilməsidir. Bu yarmarkaların təşkili təsərrüfatçıların geniş alıcı kütləsi ilə əlaqələndirilməsinə, eləcə də muxtar respublika sakinlərinin müxtəlif çeşiddə yerli, ucuz və keyfiyyətli meyvə-tərəvəz məhsullarını əldə etməsinə imkan yaradır. Tapşırığın icrası məqsədilə hər həftənin şənbə-bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində yarmarkaların keçirilməsi davam etdirilmiş, məhsulların bazar qiymətindən daha ucuz satılmasına nəzarətin həyata keçirilməsi təmin olunmuşdur. Əlavə olaraq 22-23 may tarixlərində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində göycə məhsullarının satış yarmarkası təşkil edilmiş, yarmarkaya 195 ailə təsərrüfatı tərəfindən 20 tondan çox göycə məhsulu çıxarılmışdır.

Meyvə-tərəvəz məhsullarının uzun müddət keyfiyyətini itirmədən saxlanılmasında soyuducu anbarlar həlledici rol oynayır. Bu anbarların digər müsbət cəhəti isə istənilən mövsümdə əhalinin tələbatına uyğun yerli məhsulların bazara çıxarılmasına imkan verməsindədir. Meyvə-tərəvəz istehsalında mövsümdən asılılığı azaldan digər faktor isə istixana təsərrüfatlarıdır. Dövlət proqramında da müasir tələblərə cavab verən soyuducu anbarların və istixana komplekslərinin qurulmasının davam etdirilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. İkinci rübdə Şərur rayonunda ümumi tutumu 170 ton olan 2 soyuducu anbarın, sahəsi 2 min 970 kvadratmetr olan 1 istixana təsərrüfatının yaradılması və 1 istixana təsərrüfatı sahəsinin 552 kvadratmetr genişləndirilməsi başa çatdırılmışdır. Həmçinin bu dövrdə Ordubad rayonunun Dəstə kəndində ümumi sahəsi 2 min 600 kvadratmetr olan 2 istixana təsərrüfatı yaradılmışdır. İkinci rübdə Naxçıvan şəhəri və Şərur rayonunda ümumi tutumu 1730 ton olan 4 soyuducu anbarın yaradılması davam etdirilmişdir. Həyata keçirilən tədbirlər bütün mövsümlər üçün münasib qiymətdə məhsulların bazara çıxarılmasını asanlaşdırmağa xidmət edir.





Meyvə-tərəvəz istehsalı ilə məşğul olan mülkiyyətçilərə texnika dəstəyinin göstərilməsi görülən işin keyfiyyətini və səmərəsini artırır. Lizinq yolu ilə əldə edilən avadanlıqlar istər torpağın əkin üçün hazır vəziyyətə gətirilməsi, istər əkin, istərsə də yığım prosesində faydalı rol oynayır. İkinci rübdə proqramın icrasına uyğun olaraq sahibkarlara lizinq yolu ilə 1 kartof kultivatoru və 1 kartofçıxaran verilmişdir. Təsərrüfatçıları müxtəlif meyvə-tərəvəz növləri üzrə əkin həyata keçirməyə həvəsləndirən digər amil isə sığorta mexanizmidir. Muxtar respublikada əkin sahələrini gözlənilməz risklərdən sığortalayan mülkiyyətçilərin sayı artmaqda davam edir. Aprel-iyun aylarında 75 meyvə bağı və tərəvəz əkini sahələrinin sığortalanması ötən müddətdə aparılan maarifləndirici tədbirlərin müsbət nəticəsidir.

Meyvə-tərəvəz məhsullarının keyfiyyətinin nəzarətdə saxlanılması istehlakçıların sağlamlığının qorunması məqsədi daşıyan əhəmiyyətli tədbirlərdəndir. Müxtəlif nümunələr üzərində analizlərin aparılması bazarın keyfiyyətli məhsulla təminatında xüsusi rol oynayır. Bununla yanaşı, torpaq sahələrinin aqrokimyəvi analizinin aparılması isə mülkiyyətçilərin düzgün istiqamətləndirilməsinin başlıca şərtidir. Belə ki, bu analizlər torpağın xüsusiyyətinə uyğun əkin strukturunun planlaşdırılması və gübrə normalarına olan tələbatın müəyyənləşdirilməsi baxımından olduqca vacibdir. İkinci rübdə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyasında meyvə-tərəvəz məhsullarından götürülən 43 nümunə analizə cəlb olunmuş, keyfiyyət göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyən edilmişdir. Həmçinin bu dövrdə "Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsində 5 mülkiyyətçinin müraciəti ilə 9 torpaq nümunəsində qida maddələrinin təyini məqsədilə analizlər aparılmış və nəticə aktları mülkiyyətçilərə təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası meyvə və tərəvəzin zəngin genetik fonduna malikdir. Həmin fondun mühafizəsi zərurəti müxtəlif araşdırmaların aparılmasını, elmi nəşrlərin hazırlanmasını və bu ehtiyatların çoxaldılmasını şərtləndirir. İkinci rübdə Dövlət proqramının icrası məqsədilə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Nəbatat bağında 600-ə yaxın meyvə tingi calaq edilmişdir. Bölmənin Bioresurslar İnstitutunun əməkdaşları tərəfindən meyvəçilik sahəsi üzrə hazırlanan 1 dərs vəsaiti və 1 kitab nəşrə təqdim olunmuşdur. Həmçinin bu istiqamətdə 5-i xaricdə olmaqla, 10 məqalənin nəşr edilməsi elmi araşdırmaların davam etdirilməsindən xəbər verir.

Torpaq sahələrinin xəritələşdirilməsi onlardan tam və səmərəli istifadə edilməsinə zəmin yaradır. Dövlət proqramında meyvə bağlarının salınması üçün müəyyənləşdirilmiş sahələrin xəritələşdirilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Tapşırığın icrası istiqamətində ikinci rübdə meyvə bağlarının salınması üçün fiziki şəxslərin icarəsinə verilmiş 0,72 hektar torpaq sahəsi xəritələşdirilmiş və uçotu aparılmışdır.

Meyvə-tərəvəz istehsal edən təsərrüfatçılar arasında maarifləndirmə işinin aparılması mütərəqqi əhəmiyyət kəsb edir. Mütəxəssis məsləhətinə uyğun əkinin həyata keçirilməsi və aqrotexniki qaydalara əməl olunması, son nəticədə, məhsul bolluğuna da müsbət təsir göstərir. Proqramın icrasına uyğun olaraq aprel-iyun aylarında ailə təsərrüfatçılarının və sahibkarların maarifləndirilməsi məqsədilə 9 seminar-müşavirə keçirilmiş, 5 mövzuda 250 nüsxə buklet paylanmışdır. Eyni məqsədlə Naxçıvan Televiziyasında "Bərəkət", "Ailə təsərrüfatları", "Günün tələbi" və "Naxçıvan üzümü" verilişləri hazırlanmışdır. Həmçinin "Nuhçıxan" İnformasiya Agentliyinin saytında 15 material yerləşdirilmiş, "Şərq qapısı" qəzetində 9 yazı dərc olunmuşdur.

*Görülən işlər deməyə əsas verir ki, Naxçıvanda daxili bazarda meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi işi yeni nailiyyətlərlə davam edir.*

**"Şərq qapısı"**

Müasirləşən bölgələrimiz

# İnkişaf tarixi yazan Şərurum...




***Simasından inkişaf, tərəqqi, yüksəliş, firavanlıq rayihəsi saçan, antik dövrdən başlamış tarixin bütün mərhələlərinə aid çoxlu sayda maddi mədəniyyət abidələri, o cümlədən də Qazma mağarası ilə ululuq, qədimlik rəmzidir, orijinal, bənzərsiz yallısı ilə dahi bəstəkar Üzeyir Hacıbəyovun da dediyi kimi, Azərbaycan folklor mədəniyyətinin beşiyidir Şərurum. Saranı aparan coşqun Arpaçayın suyu ilə ilhamlanıb sıldırım qayaların, əzəmətli dağların qucağında böyüyən Şərur şəhəri, Xələc, Şəhriyar, Muğanlı, Qorçulu, Kürçülü, Kürkənd, Cəlilkənd, Mahmudkənd, Yuxarı Aralıq, Aşağı Aralıq kimi müasirləşən kəndləri ilə inkişaf tarixi, Sədərək döyüşləri, Günnüt zəfəri, 44 günlük Vətən müharibəsində Sahil Cəlilov, Əli Yusifov, Cavid Nuriyev kimi onlarla igidləri ilə qəhrəmanlıq dastanı yazan Şərurum. Gəlmişəm yenə inkişafından, tərəqqindən, 2021-ci ilin ilk yarısında da muxtar respublika iqtisadiyyatına verdiyin töhfələrdən, bütün sahələrdə qazandığın uğurlardan söhbət açam, Şərurum...***

Bəli, ilbəil daha böyük inkişaf mərhələsinə qədəm qoyan, 1 şəhər və 64 kənddən ibarət, 112 minə yaxın əhalisi olan Şərur rayonu 2021-ci ildə də uğurları ilə bölgə sakinlərinin firavanlığına, muxtar respublikamızın iqtisadiyyatına töhfə verməkdə davam edir. Cari ilin ilk 6 ayının statistik göstəriciləri də deyilənləri təsdiqləyir. Belə ki, Şərur rayonunda iqtisadi və sosial sahələrin inkişafı üzrə həyata keçirilən tədbirlər cari ilin ilk yarım ilində də davam etdirilib, dinamik inkişaf qorunub saxlanılıb. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin yanvar-iyul aylarında iqtisadiyyat və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 45 milyon 599,8 min manat, yaxud əvvəlki ilin müvafiq dövrünə nisbətən 4 faiz çox vəsait yönəldilib. Yeni sənaye müəssisələrinin yaradılması və onların müasir standartlara cavab verən avadanlıqlarla təchiz edilməsi məhsul istehsalının davamlı artımına zəmin yaradıb. Cari ilin 7 ayı ərzində 58 milyon 279,4 min manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da 2020-ci ilin müvafiq dövründəki göstəricini 0,8 faiz üstələyib. 2021-ci ilin yanvar-iyun aylarında rayonda dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 15 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, 11 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilib...

***Firavan yaşayış və güzəran, yüksək rifah təminatı prioritet məsələdir...***

Muxtar respublikanın quruculuq salnaməsinə nəzər salanda Şərur rayonunun da bu yöndə inkişaf sferası gözlər önündə açılır. İndi rayona təşrif buyuran qonaqları öncə gözəl görünüşü, yaraşıqlı siması ilə Şərur şəhəri qarşılayır, köksündə ucalan üçrəngli bayrağımızın dalğalandığı Bayraq Meydanı, müasir dizaynlı küçələri ilə qürur, fəxarət hissləri yaşadır. Rayonun ən ucqar kəndi belə, imkanları baxımından şəhər mərkəzindən seçilmir, hər bir yaşayış məntəqəsi abadlığı, əlverişli şəraiti ilə sakinlərin rahatlığına xidmət edir. Cari ilin ilk 7 ayının statistik nəticələri də rayonun şəhər və kəndlərində gedən inkişafdan, quruculuq tədbirlərinin həcminin xeyli genişlənməsindən, görülən işlərin səmərəliliyindən xəbər verir. Belə ki, tikinti-quraşdırma işlərində istifadə olunmuş vəsaitin dəyəri 0,5 faiz artaraq 43 milyon 446,8 min manat təşkil edib. Ayrılan maliyyə vəsaitindən səmərəli istifadə olunub, 2021-ci ilin yanvar-iyun aylarında rayonda 30 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 37 müxtəlif təyinatlı obyektin tikintisi və ya yenidən qurulması davam etdirilib.

Son illərdə muxtar respublikamızın kəndlərində həyata keçirilən quruculuq tədbirləri çərçivəsində yolların abadlaşdırılması, yeni kənd və xidmət mərkəzlərinin, körpülərin inşası, eləcə də bütün bunlarla paralel müasir kommunikasiya sistemləri ilə təminat sakinlərin rahatlığına, firavanlığına, müasir dövrün imkanlarından maksimum faydalanmalarına hesablanıb. Şərur rayonunda da bu istiqamətdə işlər uğurla aparılmaqdadır. Belə ki, cari ilin 6 ayı ərzində rayonun yaşayış məntəqələrinin abadlaşdırılması və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində 1 kənd mərkəzinin inşası başa çatdırılıb, 2 kənd mərkəzinin inşası davam etdirilir. Bundan əlavə Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binası yenidən qurulub. Kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması məqsədilə 3 bələdiyyəyə 3 traktor və 3 qoşqu verilib. Rayonda 1 yaşayış binasının tikintisi başa çatdırılıb, 1 yaşayış binasının yenidən qurulması davam etdirilib. Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. Belə ki, 2021-ci ilin birinci yarım ilində rayonda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 10 min 621 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib. Əhalinin təmiz və keyfiyyətli içməli su ilə təmin olunması, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində Sərxanlı kəndində içməli su şəbəkəsinin tikintisi başa çatdırılıb.



Muxtar respublikamızın son illərdəki inkişaf sferalarını nəzərdən keçirəndə ordu quruculuğuna xüsusi önəm verildiyinin şahidi oluruq. Döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirmək üçün təlim mərkəzlərinin, xidmətin düzgün təşkili üçün hərbi hissələrin, sərhəd zastavalarının inşa olunması, hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması yönündə işlər illər öncədən başlayıb və hazırda da uğurla davam etdirilir. Şərur rayonu ərazisində yerləşən hərbi hissələrin, sərhəd zastavalarının müasir infrastruktura salınması, maddi-texniki təminatının yüksəldilməsi də hər il diqqətdə saxlanılır. Cari ilin ilk 6 ayında bu sahədə işlərə xüsusi önəm verilib, bu günlərdə rayonda 6-cı sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib, 1-ci Sərhəd Komendantlığı tam şəkildə kamera sistemi ilə təchiz edilib.

***Kənd təsərrüfatı sahəsi dinamik inkişaf mərhələsindədir...***

Muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən layihələr, görülən məqsədyönlü tədbirlər Şərurda bütün sahələrin dinamik inkişafına əsaslı təsir göstərib. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə qəbul olunan Dövlət proqramlarının mərhələli şəkildə uğurlu icrası nəticəsində onlarla təsərrüfat yaradılıb və beləliklə, şəhər əhalisinin təbii məhsullara olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə geniş imkanlar açılıb. Elə Şərur şəhərindəki bazarla yanaşı, rayon mərkəzinə uzanan yolda bol-bərəkətli əkin-biçin əraziləri, yeni salınan təsərrüfatlar, magistralın kənarlarına düzülən piştaxtalarda zəhmətkeş insanların alın tərinin bəhrələri bu sahədəki inkişaf haqqında "söhbət açır". Fermerlərə subsidiya və gübrələrin verilməsi, texnikalarla, suvarma suyu ilə təminat, o cümlədən keyfiyyətli yerli toxum sortlarından istifadə əkinçilikdə məhsuldarlığın da səviyyəsini ilbəil artırır. Naxçıvan şəhərində ötən illər ərzində keçirilən ənənəvi festivallarda bu bölgənin torpaq adamlarının xüsusi fəallığı, çıxarılan məhsul çeşidlərinin alıcılar tərəfindən maraqla qarşılanması, zəhmətkeşlərin müvafiq nominasiyalara layiq görülməsi də Şərurda aqrar sahənin inkişafının, sakinlərin torpağa bağlılıq hisslərinin güclü olmasının ifadəsidir. 2021-ci ilin ilk 6 ayının statistik nəticələrinə nəzər yetirəndə aydın olur ki, rayonda kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə artım tempi, əkin-biçin işlərində xüsusi canlanma müşahidə edilir. Belə ki, 2021-ci ilin məhsulu üçün rayonda 16 min 234 hektar sahədə əkin aparılıb. Əkin sahəsinin 4194 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 1675 hektarını dən üçün qarğıdalı, 34 hektarını dən üçün günəbaxan, 2056 hektarını tərəvəz bitkiləri, 487 hektarını ərzaq üçün bostan bitkiləri, 1374 hektarını kartof, 12 hektarını birillik, 5133,6 hektarını cari ildə əkilmiş çoxillik, 1264 hektarını isə əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edir. Hər mövsümdə olduğu kimi, taxılçılıq yenə üstün istiqamət kimi saxlanılıb və 2021-ci ilin məhsulu üçün 3866 hektar sahədə taxıl əkilib ki, bunun da 3789 hektarı payızlıq, 77 hektarı isə yazlıqdır. Taxıl zəmilərinin 3209 hektarında buğda, 657 hektarında isə arpa əkilib, ümumilikdə, 15 min 655 ton məhsul yığılıb.

Bəhs olunan dövrdə məhsul istehsalçılarının müasir kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı diqqət mərkəzində saxlanılıb, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 1 milyon 256 min 776 manat dəyərində 103 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə güzəştli şərtlərlə rayonda fəaliyyət göstərən sahibkarlara satılıb. Otlaq əraziləri bol olan Şərurda kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafının davamlı olaraq dəstəklənməsi təsərrüfatçılara bu istiqamətdə işlərini düzgün qurmağa imkan verir. "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin uğurlu icrası iribuynuzlu mal-qaranın, xırdabuynuzlu heyvanların baş sayının, eləcə də təbii məhsul istehsalının artımına yol açır. Bu müsbət tendensiyanı 2021-ci ilin ilk 7 ayının statistik nəticələrində də görmək mümkündür. Belə ki, 1 iyul 2021-ci il tarixə rayonun bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 37 min 425 baş, qoyun və keçilərin sayı isə 136 min 43 baş olub. 2021-ci ilin yanvar-iyul aylarında rayonda diri çəkidə 42 min 82,1 ton ət, 20 min 55,6 ton süd, 17 milyon 615,2 min ədəd yumurta, 160,3 ton yun istehsal edilib.



2020-ci ilin yanvar-iyul ayları ilə müqayisədə ət istehsalı 3,5, süd istehsalı 1,5, yumurta istehsalı 1,2, yun istehsalı isə 1,6 faiz artıb. Rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin həyata keçirilməsi 2021-ci ilin birinci yarım ilində də davam etdirilib, əvvəlki dövrlərdə mayalandırılmış inək, düyə və camışlardan 2906 baş sağlam bala alınıb. Həmçinin 7 heyvandarlıq təsərrüfatının yaradılması və 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılıb, 4 heyvandarlıq təsərrüfatının yaradılması və 1 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilib. Ümumilikdə, 2021-ci ilin ilk 7 ayında Şərur rayonunun kənd və balıqçılıq təsərrüfatlarında 90 milyon 351,7 min manatlıq məhsul istehsal edilib ki, bu da 2020-ci ilin müvafiq dövründəki göstəricini 3,6 faiz üstələyir.

***Vətənə sevgi, xalqa xidmət nümunəsi...***

Ulu əcdadımız sayılan Dədə Qorqudun "Torpağı əkmirsənsə, qorumağa, qorumursansa, əkməyə dəyməz" nəsihəti yüz illərboyu xalqımızın həyat ritminə çevrilib, ata-babalarımızın Vətənə, doğma torpağa bağlılıq hissləri tarixboyu özünü ən parlaq şəkildə göstərib. Ötən əsrin 90-cı illərində yaşanan məlum hadisələr ölkəmizin, muxtar respublikamızın ərazi bütövlüyünü təhlükə qarşısında qoyanda yurdsevər insanların torpağa sadiqlik andı içərək canlarından, qanlarından keçmələri, eləcə də ötən il 44 günlük Vətən müharibəsində qəhrəman oğulların möhtəşəm tarix yazmaları da məhz məğrurluq, yenilməzlik kimi xarakterik xüsusiyyətlərin daşıyıcısı olan milli kimliyimizə bağlılığın məntiqi nəticəsidir. Bu gün xalqımız, dövlətimiz uğrunda canını fəda edən Vətən övladlarının adını, xatirəsini daim uca tutur, ailələrinə hörmətlə, qayğı ilə yanaşır, sosial təminatları yüksəldilir, mənzil-məişət şəraitləri xeyli yaxşılaşdırılır. Müstəqillik illərinə nəzər yetirəndə görürük ki, Ali Məclis Sədrinin həssas münasibəti sayəsində muxtar respublikamızda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda həyatlarını qurban vermiş şəhid ailələrinə mənzillər verilib, onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. 2021-ci il 26 İyun – Silahlı Qüvvələr Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov şəhidlərimizin ailələri ilə görüşüb, 13 şəhid ailəsinə yeni mənzillərin açarlarını təqdim edib ki, həmin ailələrdən 6-sı Şərur rayonundandır.

Şərur şəhərindəki beşmərtəbəli yaşayış binasında 3 otaqlı mənzillə təmin olunan şəhid Zülal Mədətlinin ailə üzvləri də dövlətimizin bu yüksək qayğısından razılıq edirlər. Qəhrəman eloğlumuzun atası Rəhim dayı deyir ki, 1991-ci il avqustun 14-ü dünyaya göz açan övladım Zülal 2019-cu ildən Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı Bölməsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edirdi. Vətən müharibəsi başlayan gündən hey deyirdi ki, bizi də göndərsəydilər gedib o nankorların başını əzərdik. Ürəyi istəyən oldu. Arzusuna çatdı övladım. Naxçıvandan Vətən müharibəsinə yollanan ilk dəstədə Zülal da var idi və göstərdiyi böyük şücaət məni bir ata kimi hədsiz qürurlandırdı. İşğal altında olan bir sıra ərazilərin azad edilməsində fəallıq göstərən Zülal oktyabrın 10-da Zəngilan döyüşləri zamanı şəhid oldu, həmin ayın 19-u Şərur şəhərinin Şəhidlər xiyabanında dəfn edildi. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında qəhrəmanlıqla iştirak edən Zülal hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyev onu şəhadətə yetməsindən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif etdi.

Ailə üzvləri deyirlər ki, şəhidimizin qarşılanması, dəfn mərasimi dövlətimiz, xalqımız tərəfindən yüksək səviyyədə təşkil olundu. İndi aidiyyəti təşkilatların nümayəndələri onların ailələri, doğmaları ilə tez-tez maraqlanır, problemləri vaxtlı-vaxtında həll edilir. Ali Məclis Sədrinin xüsusi diqqət və ehtiramla 5 mərtəbəli yaşayış binasından 3 otaqlı evi onlara hədiyyə etməsi böyük qürur hissi yaşadıb ailəyə. Zülal ailəli idi, ondan yadigar iki övladı qalıb. Ailə üzvləri inanırlar ki, dövlətimizin yaratdığı şəraitdən istifadə edib onları rahat şəraitdə xalqımıza, millətimizə, atasına layiqli övladlar kimi yetişdirə biləcəklər və bütün şəhid ailələri adından göstərilən yüksək qayğıya görə minnətdarlıqlarını bildirirlər.

***...Vətənə sevgi, xalqa xidmət nümunəsi göstərən dövlətimizin apardığı uğurlu siyasət nəticəsində əldə olunan statistik nəticələrdən, eləcə də rayon sakinlərinin əməksevər fəaliyyətindən gəldiyim qənaət budur ki, dünyanın iqtisadi böhran və xəstəliklərlə mübarizə apardığı 2021-ci il də muxtar respublika sakinlərinin, o cümlədən şərurluların həyatına qızıl hərflərlə yazılır, inkişaf, tərəqqi rayonun hər addımında hiss edilir. Əminliklə demək olar ki, cari ilin qarşıdakı dövründə də bu bölgəmiz muxtar respublikanın sosial-iqtisadi inkişafına öz töhfələrini verərək inkişaf salnaməsi yazmaqda davam edəcək...***

**Nail ƏSGƏROV**



***Azərbaycan aşıq şeirinin tanınmış siması, ustad sənətkar Aşıq Ələsgər ədəbiyyat tariximizdə zəngin, maraqlı irsi, ibrətamiz fikirləri ilə yaşamaqdadır. Onun irsini öyrənən zaman görürük ki, xalq içərisindən çıxan ustad sənətkarın əsərlərində xalq deyim və duyumları özünəməxsus ifadə tərzi ilə diqqəti cəlb edir. "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 fevral tarixli və "Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş Tədbirlər Planının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları el sənətkarına göstərilən hərtərəfli dövlət qayğısının əyani göstəricisidir.***

*Aşıq Ələsgər – 200*

# Xalq deyimlərindən qaynaqlanan poeziya

1821-ci ildə Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində sənətkar ailəsində doğulan Aşıq Ələsgər uşaq yaşlarından nağılları, dastanları, dini söhbətləri maraqla dinləyir, güclü yaddaşına köçürürdü. Bütün bunlar isə onun gələcəkdə qüdrətli söz ustadı, xalq aşığı kimi formalaşmasına zəmin hazırlamışdır.Ustad sənətkarın müxtəlifməzmunlu şeirlərində qarşımıza çıxan xalq deyim və duyumları öz zənginliyi ilə maraq doğurur. Təsadüfi deyil ki, Aşıq Ələsgər yaradıcılığından süzülüb gələn bir çox ifadələr xalq arasında aforizmə, hikmətli deyimə çevrilməklə əsrlərdən bəri yaşamaqda və istifadə edilməkdədir.

Öz xalqına, onun tarixinə, mədəniyyətinə, ədəbiyyatına dərin məhəbbətlə bağlı olan Aşıq Ələsgər şeirlərində xalqımızın ən qədim tarixi və ədəbi-mədəni abidələrindən olan "Kitabi-Dədə Qorqud" dastanları ilə səsləşən ibrətamiz deyimlərin maraqlı təzahürlərinə rast gəlirik. Aşığın "Üz ha üz" cığalı təcnisindən götürülmüş aşağıdakı parçaya diqqət yetirək:

*Mərifət bəhrində qəvvasam deyən,*
*Gir dərin dəryaya, çalxan, üz ha üz.*
*Mən aşığam üz ha üz,*
*Sonam, göldə üz ha üz,*
*Bivəfadan yar olmaz,*
*Ömür üzsən, üz, ha üz.*
*Qarı düşmən bir də gəlib dost olmaz,*
*Əlin tutub yalvarasan, üz ha üz.*

Nümunədə işlənən "Qarı düşmən bir də gəlib dost olmaz" deyimi "Kitabi-Dədə Qorqud" dastanının müqəddiməsində verilən "Qarı düşmən dost olmaz" qədim türk atalar sözünün obrazlı ifadə formasıdır. Məlumdur ki, XIII əsrdə yaşamış, tanınmış xalq aşıqlarımızdan olan Xəstə Qasımın cığalı təcnislərindən birində də eyni atalar sözünün işlədilməsi ilə qarşılaşırıq:

*Həqiqət bəhrində qəvvasam deyən,*
*Qəvvas isən gir dəryaya üz ha üz.*
*Aşıq deyər üz ha üz,*
*Sonam, göldə üz ha üz,*
*Qarı düşmən dost olmaz,*
*Yalvarsan da, yüz ha yüz.*

Bu nümunə ilə tanışlıq onu deməyə əsas verir ki, Aşıq Ələsgər özündən əvvəl yaşamış el sənətkarlarının irsinə dərindən bələd olmuş, onları öyrənmiş və yeri gəldikcə onlardan bəhrələnmişdir.

Azərbaycan folklorunda igidlik, mərdlik, ərlik, sözübütövlük kimi anlayışları ifadə edən xeyli sayda atalar sözü və məsəllərimiz vardır ki, onlar xalq ədəbiyyatımıza yaxından bələd olan aşığın şeirlərində öz əksini tapmışdır. Belə ki, "İgid ölər, adı qalar", "Mərd igid kəsdiyi çörəyi basmaz" kimi atalar sözlərimiz Aşıq Ələsgər yaradıcılığında özünəməxsus obrazlılıqla ifadə edilmişdir:

*Ələsgər də eşq içində qaladı,*
*Şirin canın ataşına qaladı.*
*Ər iyidin canı getsə, qala adı,*
*Nakəslərin dəhr içində nə də adı!*

*...Ələsgər, dər bağdan yaxşıca nana,*
*Mərd iyid kəc baxmaz yaxşıca nana,*
*Yaxşı can yetişsə, yaxşı canana,*
*Həmi gün xoş keçər, həm ay-il eylə.*

"Hər gecənin bir gündüzü var" xalq deyimi Aşıq Ələsgər poeziyasında maraqlı şəkildə öz əksini tapmışdır:

*Ələsgər, axtarma qüdrətin sirrin,*
*Zülmətdə işıq var, acıda şirin.*
*Zikr eylə dilində mərdlərin pirin,*
*Qorxma, dar günündə yar olacaqdır.*

Xalq arasında "Kişinin sözü bir olar", "Kişi sözünə xilaf çıxmaz", "Söz ağızdan çıxdı, qurtardı", "Kişi gərək sözü üzə deməyi bacarsın" kimi ibrətamiz deyimlər Aşıq Ələsgər şeirlərində orijinal bir dillə, maraqlı deyim tərzi ilə işlədilmişdir:

*Arif olan, gəlin sizə söyləyim,*
*İyid sözü mərd-mərdana yaxşıdı.*
*Kişi gərək dediyindən dönməsin,*
*Biilqardan bir zənana yaxşıdı.*

Azərbaycan folklorunda "Bədəsil əvvəl vəfa göstərər, sonra cəfa", "Bədəsildən əsil olmaz, boyunca qızıl qala", "Bədəsili başa çəkərsən, sürüşüb aşağı düşər", "Bədəsilin başmağını cütlərsən, deyər geridə dur" kimi çoxlu sayda atalar sözləri vardır ki, onların da Aşıq Ələsgər yaradıcılığında olduqca maraqlı ifadə formasına rast gəlirik.

*Bədəsildən hərgiz olmaz heç əsil,*
*Lənət sana gəlsin, pis soy, pis nəsil!*
*Firib-fəsad ondan qalxar müttəsil,*
*Ölüncə tərgitməz öz əməlini.*

Bir qədər yuxarıda qeyd etdik ki, xalqının tarixi keçmişinə, ədəbiyyatına, mədəniyyətinə dərindən yiyələnən görkəmli el sənətkarının yaradıcılığında "Kitabi-Dədə Qorqud" dastanında işlənən atalar sözlərinin özünəməxsus obrazlı deyim tərzinə rast gəlirik. Belə ki, "Kitabi-Dədə Qorqud" dastanında "Qız anadan görməyincə öyüd almaz, oğul atadan görməyincə süfrə salmaz" deyiminin ikinci hissəsinin Aşıq Ələsgər şeirlərində aşağıdakı kimi işləndiyinin şahidi oluruq:

*Kişi gərək zəhmət çəksin, dər salsın,*
*Süfrə açsın, ad qazansın, dər salsın.*
*Dərsi azlar Ələsgərdən dərs alsın,*
*Altı min altı yüz ayə məndədi.*

"Gədadan bəy olmaz" atalar sözü Azərbaycan folklorunda maraqlı ifadələrdən biridir. Bu deyim Ələsgər yaradıcılığında da maraqlı bir dillə ifadə edilmişdir:

*Görməmişəm öküz yeriyə yorğa.*
*Gədadan bəy olmaz, dəlidən darğa,*
*Suda çimmək ilə sağsağan, qarğa,*
*Göldə silkələnib qaz olmaz, olmaz.*

Aşıq Ələsgər şeirlərində dostluqla bağlı nümunələrin sayı olduqca çoxdur. Maraqlıdır ki, belə şeirlərində el sənətkarı diqqəti cəlb edən ifadələrdən çox istifadə etmişdir:

*...Dedim, könül, içmə eşqin camını,*
*İçsən, dünya sana dar olacaqdı.*




*Ya dost olma, ya zəhmətdən incimə,*
*Dost yolunda boran, qar olacaqdı.*

Bu tip şeirlərində xalq sənətkarının bəzən dostların vəfasızlığından şikayətləndiyini də görürük:

*...On bir ayda mənim üzüm gülmədi,*
*Qəza qəhri məndən heç üzülmədi,*
*Yaxşı dostlar yaman gündə gəlmədi,*
*Dost sarıdan çox mükəddər olmuşam.*

***Ümumiyyətlə, Aşıq Ələsgər yaradıcılığı xalq deyimləri, atalar sözləri və məsəllərlə zəngindir. Onun irsinin bu istiqamətdə öyrənilməsi olduqca maraqlıdır. Düşünürük ki, el sənətkarının 200 illik yubileyinin qeyd edildiyi bu ildə onun ədəbi irsinin daha dərin araşdırılması bir çox yeni və orijinal faktların ortaya çıxarılmasına imkan verəcəkdir.***

**Rəşad ZÜLFÜQAROV**
*filologiya üzrə fəlsəfə doktoru*

*Ölkəmizdə, eləcə də muxtar respublikamızda bir çox sahələr kimi, təhsilin inkişafına da böyük diqqət yetirilir, ildən-ilə bu sahəyə dövlət qayğısı daha da artırılır. Böyüklüyünə, kiçikliyinə, yaxınlığına, uzaqlığına fərq qoyulmadan bütün yaşayış məntəqələrində müasir təhsil infrastrukturunun qurulması təkcə paytaxt şəhərimizin deyil, qəbul imtahanlarında iştirak edərək ali məktəblərə qəbul olunanlar arasında ucqar yaşayış məntəqələrindən olan abituriyentlərin də sayını artırıb.*

*Təhsil millətin gələcəyidir*

# Ordubad məzunları qəbul imtahanlarında uğurlu nəticələr göstəriblər

Ötən tədris ilinin qəbul imtahanlarında qazanılan uğurlar Ordubad rayonunun timsalında da özünü göstərir. Muxtar respublikamızın əksər ümumi təhsil müəssisələrində olduğu kimi, bu rayonun bir çox məktəblərinin məzunları da ali məktəblərə builki qəbul imtahanında müvəffəqiyyətlə iştirak ediblər. Belə ki, qəbul imtahanları zamanı Ordubad rayonunun abituriyentlərindən 213-ü ali təhsil müəssisələrinə sənəd verib, onlardan 20 nəfəri 500, 1 nəfəri isə 600-dən yuxarı bal toplayıb. Rayonun bütün məktəbləri üzrə ən yüksək nəticəni ***Aza kənd tam orta məktəbinin məzunu Leyla Əsgərli*** göstərib. Qəbul imtahanlarında III ixtisas qrupu üzrə iştirak edən Leyla 642 bal toplayıb.



O deyir ki, qəbul imtahanlarında uğur qazanmağımda başlıca amil məktəbimizdə yaradılmış müasir şərait, zəngin kitabxana, elektron lövhəli siniflər, fənn kabinələri və ən əsası müəllimlərimizin danılmaz zəhmətidir. Təhsil aldığım məktəb hərtərəfli maddi-texniki baza ilə təchiz olunub. Məsələn, informatika dərsləri əvvəllər qiyabi şəkildə tədris edilirdisə, bu gün artıq əyani olaraq kompüterlər vasitəsilə tədris olunur. Həmçinin dərslərin elektron lövhəli siniflərdə keçilməsi də mövzunun tam şəkildə mənimsənilməsinə şərait yaradır. Bundan başqa, dərsliklər məktəblilərə ödənişsiz verilir, lazımi dərslikləri asanlıqla əldə edə bilirik. Təbii ki, bu da biliklərə yiyələnməyimizdə mühüm rol oynayır.

Leyla ilə söhbət zamanı o, məktəb vaxtlarında qazandığı uğurlardan danışaraq qeyd etdi ki, sınaq imtahanlarında həmişə yüksək nəticələr göstərmişəm. Rayonda, eləcə də Naxçıvan şəhərində keçirilən bilik yarışlarında, inşa yazı müsabiqələrində, fənn olimpiadalarında bir sıra uğurlar əldə etmişəm. Respublika fənn olimpiadasında 3-cü yerə layiq görülmüşəm.

Leyla deyir ki, uşaqlıqdan humanitar elmlərə marağım III ixtisas qrupunu seçməyimi gerçəkləşdirib. Təhsilimi Dövlət Gömrük Komitəsinin Akademiyasında davam etdirib, bu sahədə biliyimi təkmilləşdirib, fəaliyyət göstərəcəyimə inanıram. Arzuma çatmaqda təhsil aldığım məktəbin pedaqoji kollektivinə borcluyam. Müəllimlərimiz hər bir dərsi dərindən öyrənib qavramağımız üçün səylə çalışıb və bilmədiklərimizi bizə ətraflı izah ediblər. Əlbəttə, mənim kimi, hər bir gəncin belə uğurlar qazanması dövlətimizin təhsilə olan yüksək diqqət və qayğısı sayəsindədir. Bunun müqabilində biz gənclərin üzərinə nümunəvi təhsil almaq və Vətənə layiqli övladlar kimi yetişmək vəzifəsi düşür. Bu gün əldə etdiyim nəticə hələ hər şeyə nail olmaq demək deyil. Mən bir gənc olaraq bundan sonra da daha səylə çalışacağam ki, müəllim və valideynlərimin etimadını doğruldum. Çünki məhz onların gərgin zəhmətləri yolumu işıqlandırır. Fürsətdən istifadə edərək bizim üçün belə yüksək şərait yaradanlara və əziyyətimizi çəkən müəllimlərimə, valideynlərimə dərin minnətdarlığımı bildirirəm.

"Hədəfin yoxdursa, çətin ki, uğura doğru böyük addımlar atıb, müvəffəqiyyətlər qazanasan", – deyən ***Səkinə Yusifzadə isə Ordubad şəhər Məhəmməd Füzuli adına tam orta internat məktəbinin*** fəxrlərindəndir. 599 bal toplayaraq yüksək nəticə göstərən tələbələr sırasında olan Səkinə Yusifzadə orta məktəb illərində öz biliyi və çalışqanlığı ilə müəllimlərin hörmətini qazanıb, eyni zamanda ictimai işlərdə fəallıq göstərib. Məktəbdə, eləcə də rayon səviyyəsində keçirilən tədbirlərdə, fənn olimpiadalarında, sınaq-test imtahanlarında həmişə fərqlənib. Ali məktəblərə qəbul imtahanları zamanı I ixtisas qrupu üzrə imtahan verən Səkinə ali məktəblərə ixtisas seçimi zamanı Riyaziyyat-informatika müəllimliyi ixtisasını seçərək Naxçıvan Dövlət Universitetinin tələbəsi olmaq arzusundadır. O deyir ki, həmişə çox sevdiyim müəllimlərimə oxşamağa çalışmışam. Onlar mənə insanın ən yaxşı yol göstərəninin də, yoldaşının da kitablar olduğunu deyirdilər. Ona görə də məktəb illərini həmişə kitablarla keçirmişəm. Hər dəqiqənin qədrini bilərək oxuyub öyrənmişəm. Zəhmətimin bəhrəsi olan bu günlər mənim ən xoşbəxt günlərimdir. Bu gün qazandığım uğur üçün həddindən artıq qürur hissi keçirirəm. Çalışacağam ki, bundan sonra da mənə inananların etimadlarını doğruldum.



Yüksək nəticə əldə edən digər abituriyent isə ***Dəstə kənd tam orta məktəbinin məzunu Nobat Nəbiyeva***dır. Onun dediklərindən: "Orta təhsili başa vurduğum Dəstə kənd tam orta məktəbində oxuduğum illərdə müəllimlərimizin bizə diqqəti, qayğısı, valideynlərimin dəstəyi arzularımın gerçəkləşməsinə stimul yaratdı, sabaha böyük ümidlər verdi. Hələ orta məktəb illərində vətəndaşların hüquqları, qanunlarımızın aliliyini qorumaq ən ümdə arzum, istəyim olub. Qəbul imtahanlarında topladığım 578 balla ixtisas seçimi edərək Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi olmaq arzusundayam. Arzuma çatmaqda biz şagirdlərə nümunəvi təhsil şəraiti yaradan dövlətimizə, hər zaman mənə dəstək olan valideynlərimə və təhsil aldığım məktəbin pedaqoji kollektivinə borcluyam.





***Ordubad şəhər Məhəmməd Füzuli adına tam orta internat məktəbinin digər bir məzunu – Hüseyn Süleymanlı*** da bu tədris ilində yüksək nəticə göstərən abituriyentlərdəndir. Qəbul imtahanlarında III ixtisas qrupu üzrə iştirak edən Hüseyn 574 bal toplayaraq tələbə adını qazanıb. O deyir ki, əldə etdiyim nəticə mənə uşaqlıqdan bəri təhsil almaq istədiyim Hüquqşünaslıq ixtisasına qəbul olmağıma imkan verir. Bu gün isə sevincimin həddi-hüdudu yoxdur. Qəbul imtahanlarında göstərdiyim bu yüksək nəticəni isə, ilk növbədə, dövlətimizə borclu olduğumu xüsusilə vurğulamalıyam. Ölkəmizdə, eləcə də muxtar respublikamızda bütün sahələrlə yanaşı, təhsilə də yüksək dövlət qayğısının göstərilməsi göz önündədir. Bu qayğının nəticəsidir ki, bu gün artıq biz ən müasir standartlara və ən zəruri avadanlıqlara təchiz olunmuş məktəblərdə təhsil alırıq. Məktəblərin maddi-texniki bazaları gücləndirilir, təhsilin yüksək səviyyədə qurulması üçün hərtərəfli şərait yaradılır. Oxuduğum məktəbdə də təhsilin keyfiyyəti ilbəil yaxşılaşdırılır. Mənə dərs deyən müəllimlərimə də ayrıca olaraq dərin minnətdarlığımı bildirmək istəyirəm.

Hüseyn məktəbdə qazandığı uğurlardan danışaraq qeyd etdi ki, sınaq imtahanlarında həmişə yüksək nəticələr göstərib. Oxunması zəruri olan kitablar haqqında, keçirilən müzakirələrdə iştirak edib, inşa yazı müsabiqələrində, fənn olimpiadalarında bir sıra uğurlar əldə edib. Dərslərdə hər zaman fəallıq göstərib, öz üzərində çox çalışıb, müəllimləri, ailəsi ona dəstək olublar. Hüseyn təhsilini Hüquqşünaslıq ixtisası üzrə davam etdirmək istəyir. Biz də orta məktəb həyatı ilə vidalaşıb yeni, müstəqil bir həyata qədəm qoyan, dünənin şagirdi, bu günün tələbələri, sabahın layiqli vətəndaşları olacaq bu bacarıqlı gənclərin məqsədlərinə çatması üçün onlara uğurlar arzu edirik.

**Gülcamal TAHİROVA**

Yurdumuzun nemətləri

# Ordubadın zoğal barı

*Elə ki iyul ayının sonları, avqustun əvvəlləri təqvimə qədəm qoydu, bazarlarımızda, mağazalarımızda turşməzə tamı, min bir dərdə dərman olan, faydaları ilə seçilən zoğalın uzaqdan “gəl-gəl” deyən gözəlliyi ilə rastlaşırıq. Elə biz də bu minvalla, ötən günlərdə bu meyvənin sorağı ilə, illərdir, onu öz bağında yetişdirən satıcılarla həmsöhbət olmaq üçün bazarın yolunu tutduq. Bazara daxil olduğumuz andan əllərdə qış azuqələrimizin əvəzedilməz təamı olan zoğalı görmək bu meyvənin faydalarından, ona olan tələbatdan yerindəcə xəbər verirdi.*



İlk həmsöhbətimiz bazarda öz təsərrüfatının nemətlərini satmaqla ailəsinin dolanışığını təmin edən 55 yaşlı Ordubad rayon sakini Eldar Məmmədov oldu. Eldar kişi 20 ildən çoxdur ki, bağında bu meyvənin yetişdirilməsi ilə məşğuldur. Onun şirin söhbətindən hiss olunur ki, bu il də bol məhsula sahib olub.

“Uca Yaradanın Naxçıvanın zəngin, münbit torpağından heç bir varını əsirgəməyib”, – deyir Eldar kişi. İllərin ona qazandırdığı təcrübəyə söykənərək zoğalın yetişdirilmə qaydasının sirlərindən söhbət açır: – Bağ salıb, məhsul yetişdirmək çətin, məsuliyyətli, bir o qədər də zəhmət tələb edən bir işdir. Bu işə yeni qol qoyan, tam təcrübə əldə etməyən kəslər böyük bir vəsait xərcləyib meyvə bağı salmaq istəsələr də, çox vaxt bu təşəbbüsləri arzu etdikləri kimi nəticələnmir. Çünki hər tingin, hər bitkinin öz dili var, – oğlum. O dili tutmaq üçün çalışmalısan ki, püxtələşib yaxşı nəticə əldə edə biləsən.



Eldar əmi deyir ki, bizim həyatımızda zoğal ağacları lap əvvəllərdən olub. Atamız uzun illər bağçılıq-bostançılıqla məşğul olaraq öz halal çörəyini həyatinin bəharini satmaqla qazanıb, bizi böyüdüb, boya-başa çatdırıb. Heç yadımdan çıxmaz, onun zoğal ağacları ilə etdiyi o sirli və şirin söhbətlər. Uşaq olduğumuz üçün həmişə maraqlı gələrdi. Anamıza deyərdik ki, axı atamız bağdakı ağaclarla nə danışır? Özündən soruşanda isə deyirdi ki, övladlarım, bu ağacların da öz dili, feili var. Gərək onların da nazını çəkib, dərdinə həmdəm olasan. Kənardan baxana elə gəlir ki, biz öz-özümüzə danışırıq. Amma ağaclarımız bizi başa düşür, bilir onları nazlayıb, əzizləyirik. Ağaca nə qədər yaxşı nəvaziş etsən, nə qədər qaygı ilə yanaşsan, sənin üzünü ailə-uşaq yanında bir o qədər ağ edər. Bağa gərək baxasan ki, bağ ola. Yoxsa qol qoyduğun işə əzab-əziyyət kimi yanaşsan, sözsüz ki, el içində də, ailə yanında da, Allah qarşısında da başıaşağı olarsan. Halal ruzi qazanmaq üçün alın təri tökmək, hər çətinliyə qatlanmaq lazımdır. Zamanla tökdüyün bu zəhmət tərinin əvəzini, sözsüz ki, qazandığın bol qazancın timsalında görəcəksən.

Eldar Məmmədov qeyd edir ki, elə atamdan eşitdiyim, yaddaşımda həmişəlik şirin xatirə kimi qalan bu kəlmələrin həqiqətini 20 ildir ki, ruzisini yediyim o zoğal bağlarının bəharində görürəm. Onların “başına dolanır”, qulluğunda durur, “nazlarını çəkirəm”. Bu faydalı bitkinin yetişdirmə üsullarına, bir çox sirlərinə yiyələnmişəm. Bağımda hazırda 30 zoğal ağacım var. Hər il onlardan, təxminən, 300 kiloqrama yaxın zoğal əldə edir, bazara çıxarıram. Məhsul bol olduqda, qiymətlər də hər kəsin büdcəsinə uyğun olur, yaxşı da alıcı kütləsi qazanırıq. Belə də olmalıdır. Çünki söhbət meyvə cənnəti adlanan, Azərbaycanın incisi sayılan Ordubad zoğalından gedir...

Müsahibimiz bu meyvənin yetişdirilmə qaydalarından söhbət açaraq deyir ki, diyarımızda zoğal ən çox Ordubad rayonunda yetişdirilir. Digər rayonlarla müqayisədə Ordubadın təbii şəraiti bu bitkinin yetişdirilməsinə böyük imkan yaradır. Zoğalın müxtəlif sortları var. Amma təsərrüfatçılar Naxçıvanda daha çox cır və irimeyvəli hibrid, armudu, qabığı nazik qırmızı zoğala üstünlük verirlər. Çünki bu sortların xüsusiyyəti, iqlimə uyğunlaşma qabiliyyəti digər növlərə nisbətən daha əlverişlidir. Bununla yanaşı, digər sortlarla müqayisədə mürəkkəb aqrotexniki qulluq tələb etmir. Sadəcə, kifayət qədər qulluq bəs edir ki, yaxşı məhsul əldə edəsən. Təsərrüfatçı deyir ki, zoğal ağacı yayda digər ağaclara nisbətən daha tez çiçəkləyir və ilin bu dövrlərində bar verdiyinə görə el arasında ona “şeytanaladadan” da deyirlər.

Eldar əmi ilə başladığımız bu şirin söhbəti yekunlaşdırıb, elə yerindəcə adını çəkdiyimiz Ordubad zoğalından alıb evin yolunu tuturam. Hələ işimiz çoxdur. Oxucularımıza bu səxavətli meyvənin yetişdirilməsindən danışıb, illərdir, qız-gəlinlərimizin qış azuqəsi kimi ondan hazırladığı mürəbbədən, kompotdan danışmasaq olmaz.

Budur, evə çatmışam. Qapıda məni ailəmizin ağbirçək nənəsi Roza Ələkbərova qarşılayaraq əlimdəki zoğal dolu çantanı alıb deyir: “Bəh-bəh, qadasını aldığım nə gözəl bazarlıq edib, görüntüsündən, ətrindən bilinir ki, Ordubad zoğalıdır”.

Nənəmizlə birgə zoğaldan mürəbbə və kompot hazırlamaq, oxucularımızı da bu meyvədən alınan qış azuqələrinin sirləri ilə yaxından tanış etmək üçün ocağın başına keçirik.

Müsahibimiz əvvəlcə zoğalları yaxşıca yuyub təmizlədikdən sonra mürəbbə üçün hazır vəziyyətə gətirir. Elə söhbətimiz də buradan başlayır. Nənəmiz deyir ki, qış fəslinin qonaqlı-qaralı süfrələrinin bəzəyi, əsasən, zoğal mürəbbəsi və kompotudur. Bəzən zoğalın mürəbbəsini hazırlamağa yeni başlayan xanımlar qabaqcıl təcrübədən xəbərsiz olduqları üçün onun giləlırini bir dəfəyə axıradək qaynatmaqla, əslində, faydalı tərkibini xeyli zəiflədirlər. Onun insan orqanizmi üçün faydalı olan birləşmələri məhv olur. Bütün xanımlar bilir ki, mürəbbələrin “şahı” sayılan zoğal soyuqdəymənin əlacıdır. Hələ keçmiş zamanlarda, bizlər xəstə olarkən ana-nənələrimiz zoğal, alça kimi meyvələrlə dərdimizə əlac edərdi. Ordubadın adla deyilən, vitaminlə zəngin olan zoğalı isə xüsusilə immunitet, şəfa mənbəyidir. Çox keçməzdi ki, faydasını da görər, sağalardıq. Nənəmiz mürəbbənin hazırlanma qaydasından söhbət açaraq deyir ki, zoğalın çəyirdəkli mürəbbəsi üçün (bəzən çəyirdəksiz zoğal mürəbbəsi hazırlayanlar da olur) 1 kiloqram meyvəyə 1,2-1,5 kiloqram şəkər tozu və 2 stəkan su götürməklə şərbət hazırlayıb iki hissəyə bölürük. Mürəbbəni hazırlayacağımız ləyənə mürəbbəlik zoğalın hamısını tökdükdən sonra hazırlanan şərbətin yarısını əlavə edərək vam odda qaynara düşənə qədər bişiririk. Qaynara düşən kimi ocağın üzərindən götürüb kənara qoyaraq 6-8 saat soyuduruq. İkinci dəfə qaynadılanda şərbətin qalığı da əlavə edilir. Yenə 6-8 dəqiqə qaynadıqdan sonra oddan götürülüb, 5-6 saat soyudulur. Üçüncü qaynama prosesində isə mürəbbənin üzərinə yığılan köpüyün hamısı, ehtiyatlı bir şəkildə yığılmalıdır. Bununla da mürəbbənin, necə deyərlər, ağır prosesi yekunlaşır. Geridə isə onu vam odda, arabir nəzarət etməklə bişirib yekunlaşdırmaq qalır.

Həmsöhbətim deyir ki, mürəbbə şirəsi şəffaf rəng alıb meyvələr qabın dibinə çökəndə ocaqdan götürülməlidir. Mürəbbə daha ətirli və təravətli olsun deyə, ocaqdan götürüləyinə az qalmış zövqdən asılı olaraq ləyənə 5-6 ətirşah yarpağı və azacıq vanil əlavə etmək olar. Bunu rəndələnmiş limon qabığı və çəviz ləpəsi ilə əvəz edənlər də olur. Mürəbbəmiz bişib soyuduqdan sonra onu təmiz bankalara yığıb sərin yerdə saxlamaq lazımdır. Bununla da mürəbbənin hazırlanma prosesi yekunlaşır.

Mürəbbənin bişirilmə qaydası ilə oxucularımızı tanış etdikdən sonra keçid alırıq zoğalın hər dərdə dava olan kompotunun hazırlanma prosesinə. Nənəmiz bu məqamda bir faktı diqqətə çatdıraraq deyir ki, zoğalın digər meyvələrlə (qırmızı alça, gilas, gilənar) müqayisədə rəngi çox da tünd olmur. Bəzi xanımlar elə düşünür ki, zoğalın miqdarı az olduğu üçün belədir. Bu fikirlə onlar kompot edəcəkləri bankalara lazım olandan daha çox zoğal əlavə edirlər. Nəzərə alsaq ki, zoğal çox kalorili və turşməzə meyvədir, bu hal təzyiq xəstəsi olanlara ciddi problemlər yarada bilər. Ona görə bankaya bir dolu ovucdan artıq zoğal əlavə etməsinlər ki, insan səhhətində hansısa narahatlıq yaratmasın.

“Zoğalın kompotunu hazırlamaq mürəbbə və cemə nisbətən daha sadədir”, – deyən Roza nənə qeyd edir ki, bir ovuc dolusu, təqribən, 20-30 ədəd zoğalı (bankanın ölçüsünə görə dəyişər) bir litrlik bankalara yığıb üzərinə iki çay fincanı qədər şəkər tozu əlavə edib aldığı qədər qaynamış su ilə doldururuq. Daha sonra bankaların ağzını hava keçirməyəcək şəkildə yaxşıca bağladıqdan sonra qaynar suya yerləşdirib, təxminən, 15-20 dəqiqə qaynadırıq. Kompotun rənginin bir az dəyişib, tündləşdiyini gördükdə onu sudan çıxarıb bir daha banka ağızlarının yaxşı bağlandığına nəzarət etdikdən sonra onları da mürəbbə kimi sərin yerdə saxlamaq lazımdır. Bununla kompotun da hazırlanma prosesi yekunlaşır. Geridə isə qış uzunu onları şad-xürrəm, deyə-gülə ağzişirin yemək qalır.

***Bəli, əziz oxucularımız. Müsahiblərimizin səmimi söhbətlərindən də görünür ki, insanın əziyyətinə dəyər verən səmimi, xoşbəxt bir ailəsi olduqdan sonra heç bir çətinlik onu yorub-usandırmır, bezdirmir. Hətta turş meyvənin ağızbüzən dadı belə, onların çöhrəsindəki təbəssümlə baldan da şirin olur insana. Ocaqda bişən zoğal mürəbbəsindən yeyib, samovar çayından için-için bir anlıq başqa bir düşüncənin sehrinə dalıram. Düşünürəm ki, Uca Yaradan bu torpaqdan heç bir varını əsirgəməyib. Yurdumuzun insanlarına min adda, min bir dadda zəngin, səxavətli, faydalı nemətlərini verməklə onlara sonsuz rəhmət bəxş edib. Elə mövzumuzda da adını çəkdiyimiz yurdumuzun zoğal barı kimi.***

**Məcid RƏŞADƏTOĞLU**

## Dezinfeksiya tədbirləri davam etdirilir



Virus infeksiyalarına qarşı mübarizə tədbirləri çərçivəsində Naxçıvan şəhərində və rayonlarda dezinfeksiya tədbirləri davam etdirilir. Naxçıvan şəhərindəki Heydər Əliyev prospekti, Cəlil Məmmədquluzadə, Nəsirəddin Tusi, Azərbaycan küçəsi, Əziz Əliyev, Pişəvəri, İstiqlal, İdris Məmmədov, Nizami, Atatürk, İslam Səfərli, Əliqulu Qəmküsar küçələri, “Mərkəzi Xəstəxana” publik hüquqi şəxs, “Kardiologiya Mərkəzi” publik hüquqi şəxs, “Təcili Tibb Mərkəzi” publik hüquqi şəxs, “Yoluxucu Xəstəliklər Mərkəzi” publik hüquqi şəxs, “Ağciyər Xəstəlikləri Mərkəzi” publik hüquqi şəxs, “Uşaq Xəstəxanası” publik hüquqi şəxs, “Doğum Mərkəzi” publik hüquqi şəxs, Körpələr evi, Onkoloji Mərkəz, Psixi Xəstəliklər Dispanseri, Səhiyyə Nazirliyi, Üzgüçülük Mərkəzi, Gömrük Komitəsi, Avtovağzal, 2 Mərasim evi, 1 nömrəli Mənzil İstismar İdarəsinin ərazisinə daxil olan ictimai yaşayış binaları, girişləri, zirzəmisi və ətrafı dezinfeksiya olunub. Bu tədbirlər çərçivəsində Naxçıvan şəhərində 1 milyon 200 min kvadratmetr, rayonlarda isə 1 milyon 262 min kvadratmetr sahə olmaqla, ümumilikdə, 2 milyon 462 min kvadratmetr sahə dezinfeksiya edilib.

Dezinfeksiya tədbirləri Fövqəladə Hallar Nazirliyinin 1 dezinfeksiya avtomobili, xüsusi qurğu quraşdırılmış 3 yanğınsöndürmə avtomobili, dezinfeksiya qrupları və Dövlət Baytarlıq Xidmətinin 2 dezinfeksiya avtomobili vasitəsilə həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Kursantlar *“Yay məktəbi”*ndə olub



Füsunkar təbiəti, zəngin flora və faunası ilə daim bu yurda üz tutanları özünə heyran qoyan Naxçıvanımız həm də geniş turizm infrastrukturuna sahibdir. Ötən illər ərzində bu sahədə məqsədyönlü addımların atılması turizm potensialının yaxşılaşdırılması, istirahət zonalarının yaradılması istər yerli, istərsə də əcnəbi turistlərin buraya axınını sürətləndirir. Bu mənada, son dövrlər Ağbulaq İstirahət Mərkəzi ən populyar ekoturizm məkanlarından birinə çevrilib. Mərkəz son illərdə qədim diyarımıza gələn qonaqların, tələbə və məktəblilərin ən çox üz tutduqları ünvanlardandır. Hər il mərkəzdə gənclərin “Yay məktəbi” təşkil olunur, onlar arasında müxtəlif intellektual və idman yarışları keçirilir.

“Yay məktəbləri”nin təşkili qrafikə uyğun olaraq davam etdirilir. Budəfəki mərhələdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları mərkəzin qonağı olublar. “Yay məktəbi”nin proqramına əsasən təyin olunan müddət ərzində kursantlar üçün konsert proqramı, müxtəlif idman oyunları, müsabiqələr, intellektual yarışlar və film nümayişləri təşkil olunacaq.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunan ənənəvi “Yay məktəbi” 3 gün davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Elan

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının birgə təşkilatçılığı ilə Naxçıvan şəhəri, Xətai küçəsindəki Mərkəzi Bazarda, həmçinin rayon mərkəzlərində 1-15 sentyabr 2021-ci il tarixlərdə keçiriləcək məktəbli yarmarkasına muxtar respublika əhalisi dəvət edilir.

Məktəbli yarmarkası hər gün saat $9^{00}$-dan $14^{00}$-dək əhaliyə xidmət göstərəcəkdir.

Yarmarkada əhaliyə münasib qiymətlərlə yüksək keyfiyyətdə məktəbli geyimləri və idman formaları, ayaqqabı və məktəbli ləvazimatları təklif olunacaqdır.

Bütün valideynləri və müəllimləri yaradılmış şəraitdən istifadə etmək üçün yarmarkalara dəvət edirik.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi***

### İtmişdir

Şərur rayonu, Şəhriyar kənd sakini Nəzərov Hüseyn Heydər oğlunun adına verilmiş JN-156$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair” şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Quliyeva Qiymət Gülmalı qızına məxsus Naxçıvan şəhəri, Əlincə məhəlləsi, bina $2^{a}$, mənzil 10-da yerləşən mənzilə dair $04/185^{a}$ nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Abbasov Mənsur Bayram oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 684